# Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında

Avropa Şurası Konvensiyası



## Monitorinq **mexanizmi**

Translation co-funded by the European Union

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE



**İstanbul Konvensiyası** adı ilə də tanınan **Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası** 1 avqust 2014-cü ildə qüvvəyə minmişdir. Bu, qadınlara qarşı zorakılığın bütün formalarına, o cümlədən məişət zorakılığına dolğun cavab reaksiyasını təmin etmək üçün məcburi hüquqi qüvvəyə malik hərtərəfli öhdəliklər müəyyən edən ilk beynəlxalq müqavilədir. Konvensiya aşağıdakılara dair ətraflı müddəaları özündə ehtiva edir:

- zorakılığın qarşısının alınması,
- qurbanların müdafiəsi və dəstəklənməsi və
- qanunpozucuları barəsində cinayət təqibinin həyata keçirilməsi

eləcə də əlaqələndirilmiş şəkildə həyata keçirilməli olan hərtərəfli siyasətlərin hazırlanması öhdəliyi.

İstanbul Konvensiyası bir çox innovativ xüsusiyyətlərə malikdir. Belə ki, Konvensiyada qadınlara qarşı zorakılıq insan hüquqlarının pozulması və ayrı-seçkilik forması kimi qəbul edilir. Konvensiya qadınlara və qızlara qarşı bir sıra sui-istifadə hallarının kriminallaşdırılmasını tələb edir və belə halların dərin kökləri (gender bərabərsizliyi, stereotiplər və xurafat) ilə mübarizə aparmağın vacibliyini vurğulayır.

Konvensiya onun müddəalarının təcrübədə tətbiq edilməsinin qiymətləndirilməsi üçün monitorinq mexanizmini müəyyən edir və tərəflər üçün rəhbər təlimatlar təqdim edir. Bu monitorinq mexanizmi iki qurumdan ibarətdir: Qadınlara qarşı zorakılığa və məişət zorakılığına qarşı fəaliyyət üzrə ekspertlər qrupu **(GREVIO)** və **Tərəflərin Komitəsi.**



## GREVIO

- GREVIO Konvensiyanı ratifikasiya etmiş dövlətlər tərəfindən Konvensiyanın icrasının monitorinqinə görə cavabdehlik daşıyan ixtisaslaşmış müstəqil qurumdur. O, Konvensiya müddəalarının həyata keçirilməsi üçün bu dövlətlər tərəfindəndən görülmüş qanunverici və digər tədbirləri qiymətləndirən hesabatlar hazırlayır və dərc edir (qiymətləndirmə proseduru). GREVIO xüsusi hallarda sorğular da təqdim edə bilər (sorğu proseduru).
- GREVIO Konvensiyada nəzərdə tutulan mövzu və anlayışlarla bağlı ümumi tövsiyələr də qəbul edə bilər.

## GREVIO-nun üzvləri kimlərdir?

- GREVIO-nun üzvləri insan hüquqları, gender bərabərliyi, qadınlara qarşı zorakılıq və ya qurbanlara yardım və onların müdafiəsi sahəsində geniş səriştəyə malik olan və yaxud bu sahələrdə müvafiq peşəkar təcrübə nümayiş etdirən, yüksək mənəvi keyfiyyətlərə sahib **müstəqil və qərəzsiz ekspertlərdir**.

- GREVIO 15 müstəqil üzvdən ibarətdir. Onun tərkibinə üzvlər qəbul edilərkən gender və coğrafi balans, habelə çoxsahəli biliklər nəzərə alınır. GREVIO-nun üzvləri Tərəflərin Komitəsi tərəfindən Konvensiyanın iştirakçısı olan tərəflərin vətəndaşları və müxtəlif peşə sahibləri olan şəxslər (hakimlər, prokurorlar, alimlər, sosial işçilər, vətəndaş cəmiyyəti nümayəndələri və s.) arasından seçilirlər.

- GREVIO-da üzvlük müddəti **dörd ildir və bir dəfə təkrarən üzv seçilmək olar.**



## GREVIO qiymətləndirmələri necə həyata keçirir?

- Ölkələr üzrə işləyən GREVIO Konvensiyanı ratifikasiya etmiş hər bir dövlətin ilk (baza xarakterli) qiymətləndirilməsini həyata keçirir. GREVIO bu prosedura müvafiq dövlət sorğu anketi göndərməklə başlayır və dövlət orqanlarını hərtərəfli hesabat hazırlamaqla sorğunu cavablandırmağa dəvət edir. GREVIO, həmçinin **müxtəlif mənbələrdən**, o cümlədən qeyri-hökumət təşkilatlarından (QHT), vətəndaş cəmiyyətinin digər üzvlərindən, milli insan hüquqları təsisatlarından, Avropa Şurasının təsisatlarından (Parlament Assambleyası, İnsan hüquqları üzrə Komissar və digər aidiyyəti təsisatlardan), habelə digər beynəlxalq sənədlərə əsasən təsis edilmiş qurumlardan **əlavə məlumatlar** toplayır.

- Sonra GREVIO **qiymətləndirici səfər** həyata keçirir. GREVIO-nun nümayəndə heyəti ilə həmsöhbətləri (rəsmilər, QHT nümayəndələri, qurbanlar və s.) arasında görüşlərin məzmunu konfidensial saxlanılır.

- Daha sonra GREVIO qiymətləndirici hesabatının layihəsini hazırlayır və onu şərhlər üçün müvafiq hökumətə göndərir. GREVIO yekun hesabatını hazırlayarkən bu şərhlər nəzərə alınır və sonra hesabat bir daha dövlət orqanlarınagöndərilir. **GREVIO-nun hesabatı** qəbul edildikdən sonra müvafiq tərəfdən alınmış şərhlərlə birlikdə **dərc olunur** (İstanbul Konvensiyasının saytında yerləşdirilir).

## GREVIO sorğulara necə başlayır?

- Konvensiyanın əhatə etdiyi **hər hansı zorakılıq aktlarının ciddi, kütləvi və ya davamlı şəkildə törədilməsi təcrübəsinin** qarşısını almaq üçün tədbir görülməsinin tələb olunduğunu göstərən **mötəbər məlumat** olduqda GREVIO sorğu proseduruna başlaya bilər.
- GREVIO müvafiq dövlət tərəfindən **xüsusi hesabatın** təcili surətdə təqdim edilməsini tələb edə bilər.
- Sərəncamında olan məlumatları nəzərə alaraq, GREVIO **sorğu** aparmaq üçün üzvlərindən birini və ya bir neçəsini təyin edə bilər. Zərurət olduqda və müvafiq dövlət orqanlarının razılığı ilə sorğu çərçivəsində ölkəyə səfər edilə bilər.

## GREVIO nələri etmir?

- GREVIO şikayət orqanı deyil. Avropa Şurasının qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə əlaqədar insan hüquqlarının pozulması barədə fərdi şikayətlərə baxmaq hüququna malik yeganə orqanı Avropa İnsan Hüquqları Məhkəməsidir.

- GREVIO məhkəmə icraatına müdaxilə etmir.




## TƏRƏFLƏRİN KOMİTƏSİ

- Tərəflərin Komitəsi Konvensiyanın iştirakçısı olan dövlətlərin nümayəndələrindən ibarətdir. GREVIO-nun hesabatları əsasında Komitə GREVIO-nun hesabatında gəlinən nəticələrin icrası üçün görülməli tədbirlərə dair **tövsiyələr** qəbul edə bilər. O, həmçinin öz tövsiyələrinin icrasına nəzarət edir.

- Komitə imkan yaranan kimi GREVIO-nun üzvləri tərəfindən təqdim edilmiş **hər hansı sorğu nəticəsində gəlinmiş nəticələri öyrənir** və bu nəticələrə uyğun olaraq görülməsi zəruri olan tədbirləri nəzərdən keçirir.

## MONİTORİNQDƏ PARLAMENTİN İŞTİRAKI

- Konvensiyanın ən mühüm yeniliklərindən biri tərəflərin üzərinə **parlamentlərini monitorinq prosesinde iştiraka** dəvət etmək və GREVIO-nun hesabatlarını onlara təqdim etmək öhdəliyinin qoyulmasıdır.

- Konvensiyada, həmçinin **Avropa Şurasının Parlament Assambleyası üçün mühüm rol** nəzərdə tutulur. Belə ki, o, Konvensiyanın icrasını mütəmadi dövriliklə qiymətləndirməyə dəvət edir.

## QHT-LƏRİN VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİNİN ROLU

- QHT-lər və vətəndaş cəmiyyətinin digər üzvləri (məsələn, elmi təşkilatlar, həmkarlar ittifaqları, vəkil assosiasiyaları) Konvensiyanın icrasının monitorinqi prosesində **mühüm tərəfdaşlardır.** Onlar **mühüm informasiya mənbələridir** və GREVIO aldığı bütün informasiyaları konfidensial saxlayır.

- QHT-lər istənilən vaxt məlumatlarını təqdim etməyə və narahatlıqlarını bölüşməyə ciddi şəkildə təşviq edilirlər.

- Konkret ölkəni monitorinq etməyə başlayarkən GREVIO QHT-ləri müvafiq məlumatlar təqdim etməyə dəvət edə bilər. Onun nümayəndə heyətləri səfərləri zamanı həmçinin **QHT nümayəndələri ilə görüşlər** keçirirlər.

## Əlaqə məlumatları və əlavə informasiya üçün:

Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyasının Monitorinq Mexanizminin Katibliyi
Avropa Şurası
F – 67075 Strasburq Cedex
Fransa

E-mail: conventionviolence@coe.int

**www.coe.int/conventionviolence**

PREMS 146116 – ENG – © Council of Europe – Photo credit: Council of Europe / Shutterstock

AZE

**www.coe.int**

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 47 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

Translation co-funded by the European Union

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Bu tərcümə Avropa İttifaqının və Avropa Şurasının birgə maliyyələşdirdiyi "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsi çərçivəsində hazırlanıb. Burada ifadə olunan fikirlər hər iki tərəfin rəsmi mövqeyini əks etdirməyə bilər.